

ISO 21001:2018

Ümumi məlumat

KEYFİYYƏT®
ASSOSİASİYASI

Azərbaycanda keyfiyyətin səsi

ISO 21001:2018 standartı nədir?

ISO 21001 ÖYRƏNƏNLƏR VƏ DİGƏR MÜŞTƏRİLƏRİN EHTİYAC VƏ TƏLƏBLƏRİNİ ÖDƏYƏ BİLƏN TƏHSİL MƏHSUL VƏ XİDMƏTLƏRİNİ TƏQDİM EDƏN TƏŞKİLATLAR ÜÇÜN ÜMUMİ İDARƏETMƏ ALƏTİ İLƏ TƏMİN EDİR.

Bu ayrıca idarəetmə sistemi standartı olmaqla yanaşı digər idarəetmə sistemi standartları (ISO 9001, ISO 14001 və s.) ilə uzlaşdırılmış şəkildə fəaliyyət göstərə bilir. ISO 21001 əsas diqqətini təhsil təşkilatları, öyrənənlər, müştərilər və digər maraqlı tərəflər arasındakı xüsusi əlaqələrə yönəldir.

O, aşağıda qeyd edilən hallarda təhsil təşkilatını idarəetmə sisteminə (TTİS) tələblər müəyyən edir:

- Təşkilat tətbiq edilə bilən qanunverici və normativ tələblərə cavab verməklə yanaşı biliyin formalaşmasını davamlı olaraq təmin etmək, bölüşmək və asanlaşdırmaq qabiliyyətini nümayiş etdirməyə ehtiyac duyarsa;
- Təşkilat sistemin yaxşılaşdırılması üzrə proseslər də daxil olmaqla, özünün TTİS-nin effektiv tətbiqilə öyrənənlərin, digər müştərilərin və işçi heyətinin məmnuniyyətinin artırılmasını qarşısına məqsəd qoyarsa.





Bu standartı **kim tətbiq edə bilər?**


ISO 21001-İN BÜTÜN TƏLƏBLƏRİ ÜMUMİ XARAKTER DAŞIYIR VƏ NÖVÜNDƏN, ÖLÇÜSÜNDƏN VƏ TƏQDİM ETDİYİ MƏHSUL VƏ XİDMƏTDƏN ASILI OLMAYARAQ, TƏDRİS, TƏLİM VƏ YA TƏDQİQAT VASİTƏSİLƏ BİLİYİN FORMALAŞMASINI TƏMİN EDƏN, PAYLAŞAN VƏ ASANLAŞDIRAN TƏHSİL TƏŞKİLATLARINA TƏTBİQ OLUNA BİLƏR.

Buna görə də standart bilikləri təmin etmək, bölüşmək və ötürmək üçün kurrikulumdan (proqramdan) istifadə edən istənilən təşkilatın idarəetmə sisteminə tətbiq edilir.

ISO 21001 tətbiqi
nə üçün vacibdir?

TƏHSİL TƏŞKİLATLARI ÖYRƏNƏNLƏRİN VƏ DİGƏR MÜŞTƏRİLƏRİN TƏLƏBLƏRİNİ YERİNƏ YETİRMƏ QABİLİYYƏTLƏRİNİ GÜCLƏNDİRMƏK ÜÇÜN HƏMİN TƏLƏBLƏRİN NƏ DƏRƏCƏDƏ YERİNƏ YETİRİLDİYİNİ QİYMƏTLƏNDİRMƏLƏRİ ONLAR ÜÇÜN KRİTİK VƏ DAVAMLI EHTİYAC KİMİ ÇIXIŞ EDİR.

ISO 21001 əsas diqqətini təhsil təşkilatları, öyrənənlər və digər müştərilər arasındakı xüsusi əlaqələrə yönəldir. Cari təhsil prosesləri ənənəvi müştəri-təchizatçı əlaqələrinin birgə əməkdaşlığa çevrildiyi ortaq yaradıcılığa getdikcə daha çox yönəlir. Bu standart dəyişkən yeni mühitdə keyfiyyəti necə təqdim etməklə bağlı rəhbəredici göstərişləri özündə ehtiva edir.



Təhsil bir çox digər sahələrdən onunla fərqlənir ki, uğurlu təhsil prosesi öyrənənin uğur qazanma şansını artırır. Bununla belə uğuru mütləq əldə edəcəyinə zəmanət vermir.

Həm öyrənənlərin, həm də təhsil təşkilatının səyi və qabiliyyəti təhsil prosesinin uğurlu olmasının mühüm dəyişənlərindəndir. Öyrənmə bilik, üsul və bacarıqların daxilləşdirilməsini (internallaşdırılmasını) nəzərdə tutur. Təhsil təşkilatı bu daxilləşdirilməni stimullaşdırır və onun baş verməsi üçün çərçivə, giriş, proseslər və öyrənmə resurslarını təmin edir. Bununla belə, son nəticədə təhsil prosesinin uğurunu öyrənənin səy və bacarığı şərtləndirir.

ISO 21001-in benefisiarları kimlərdir?

BÜTÜN DÜNYADAKI ÖYRƏNƏNLƏRİN VƏ TƏHSİL TƏŞKİLATLARININ BU YENİ İDARƏETMƏ SİSTEMİ STANDARTININ BENEFESİARI OLMASINA BAXMAYARAQ, TƏHSİL TƏŞKİLATLARINDA STANDARTLAŞDIRILMIŞ İDARƏETMƏ SİSTEMİNİN NƏTİCƏLƏRİNDƏN BÜTÜN MARAQLI TƏRƏFLƏR (YƏNİ HƏR KƏS) FAYDALANACAQDIR.



Bu beynəlxalq standarlardan fayda əldə edəcək təşkilatlara maliyyələşdiyi mənbədən asılı olmayaraq (ictimai, özəl, təsərrüfat hesablı, qeyri-kommersiya)

- məktəbəqədər təhsil müəssisələri,
- orta məktəblər,
- tam orta məktəblər,
- kolleclər,
- universitetlər,
- xüsusi məktəblər,
- peşə təhsili və təlimi ilə məşğul olan məktəblər/təşkilatlar,
- təhsil/təlim təşkilatları, m
- əsləhət təşkilatları və
- qeyri-formal təhsil xidmətləri göstərən təchizatçılar

daxildir.



ISO 21001-in prinsipləri hansılardır?

TTİS-İN TƏTBİQİ 11 PRİNSİPƏ ƏSASLANIR. ONLAR AŞAĞIDA VERİLMİŞDİR:

- Öyrənənlərə və digər benefisiarlara yönəlmə
- Uzaqgörən liderlik
- İnsanların cəlb edilməsi
- Proses yanaşması
- Davamlı təkmilləşdirmə
- Dəlillərə əsaslanan qərarlar
- Münasibətlərin idarə edilməsi
- Sosial məsuliyyət
- Əlçatanlıq və bərabərlik
- Etik davranış
- Məlumatın təhlükəsizliyi və qorunması

ISO 21001-in tətbiqilə hansı **faydalar** əldə etmək olar?

BU BEYNƏLXALQ STANDARTIN TƏLƏBLƏRİNƏ UYĞUN QURULAN TƏHSİL TƏŞKİLATLARINI İDARƏETMƏ SİSTEMİNİN (TTİS) TƏTBİQİ TƏŞKİLATA BİR ÇOX FAYDALAR TƏQDİM EDƏ BİLƏR.

Onlardan bir qismi aşağıda verilmişdir:

- Məqsədlərin və fəaliyyətlərin siyasətə daha yaxşı uyğunlaşdırılması;
- Hər kəs üçün inklüziv və eyni keyfiyyətli təhsili təmin etməklə sosial məsulliyyətin artırılması;
- Ələxsus xüsusı təhsil ehtiyacları olanlar və distant təhsil alanlar daxil olmaqla, bütün öyrənənlərə daha fərdiləşdirilmiş öyrənmə xidmətinin göstərilməsi və onların ehtiyaclarına effektiv reaksiya verilməsi;
- Effektivlik və səmərəliliyin nümayiş etdirilməsi və artırılması üçün ardıcıl proseslər və qiymətləndirmə alətləri;
- Təhsil təşkilatının nüfuzunun artması;
- Keyfiyyətin idarə edilməsi üzrə effektiv təcrübələrə bağlılığını nümayiş etdirmək qabiliyyəti;
- Təşkilatın təkmilləşdirliməsi üçün mədəniyyətin formalaşması;
- Beynəlxalq çərçivədə regional, milli, açıq və xüsusi standartların harmonizasiyası;
- Maraqlı tərəflərin aktiv iştirakı;
- Mükəmməlliyin və innovasiyaların stimullaşdırılması.



ISO 21001 **kim tərəfindən** işlənilib hazırlanıb

ISO 21001:2018 STANDARTI ISO/PC 288, TƏHSİL TƏŞKİLATLARINI İDARƏETMƏ SİSTEMİ ÜZRƏ LAYİHƏ KOMİTƏSİ NƏZDİNDƏ FƏALİYYƏT GÖSTƏRƏN SAHƏLƏRARASI MÜTƏXƏSSİSLƏR QRUPU (WG 1) TƏRƏFİNDƏN İŞLƏNİLİB HAZIRLANMIŞDIR.

ISO 21001:2018 beynəlxalq standartının hazırlanmasında 39 ölkədən 86 mütəxəssis, habelə müxtəlif təhsil sahələrini təmsil edən maraqlı təşkilatlar iştirak etmişdir.



Əlavə məlumat

Bu kitabça Keyfiyyət Assosiasiyası İctimai Birliyi tərəfindən Beynəlxalq Standartlaşdırma Təşkilatının (ISO) materialları əsasında hazırlanmışdır.

ISO 21001 beynəlxalq standartı, onun tətbiqi və sertifikatlaşdırılması ilə bağlı daha ətraflı məlumatı əldə etmək üçün Assosiasiyamıza müraciət edə bilərsiniz:

Ünvan: Babək prospektİ 64d, Nizami rayonu, Bakı şəhəri
Tel.: (+994 12) 480 28 47;
Mobİl: +994 55 220 94 08
www.aqa.az

Keyfiyyət Assosiasiyası
İctimai Birliyi

BİZ TƏŞKİLATLARDA ISO 21001:2018 STANDARTINA UYĞUN İDARƏETMƏ SİSTEMİNİN İŞLƏNİLMƏSİ, TƏTBİQİ, MÖVCUD SİSTEMİN DAVAMLI OLARAQ YAXŞILAŞDIRILMASI, BÜTÖVLÜKDƏ FƏALİYYƏTİN TƏKMİLLƏŞDİRİLMƏSİ İLƏ BAĞLI MƏSLƏHƏT XİDMƏTİ, EYNİ ZAMANDA EFFEKTİV HƏLL VARİANTLARINI TƏKLİF EDİRİK.



Biz göstərdiyimiz məsləhət xidmətlərini ISO 21001:2018 standartının tələblərinə və mütəxəssislərimizin işlədiyi metodika və prosedurlara uyğun şəkildə həyata keçiririk.

Bizim məsləhət xidməti çərçivəsində istifadə etdiyimiz metod və alətlər təşkilatda biznes proseslərin effektivliyinin artırılmasına, idarəetmənin və təşkilatdaxili əlaqənin yaxşılaşdırılmasına, bütün fəaliyyətlər üzrə geniş monitorinq və nəzarət sisteminin qurulmasına kömək edir.

Biz məsləhət layihəsini həyata keçirərkən hazırladığımız praktik tövsiyələri təqdim etməklə təşkilatın daxili resurslar hesabına nəzərdə tutulan nəticələrə nail olunmasına, bu prosesə bütün personalın cəlb olunmasına, davamlı yaxşılaşdırma sisteminin formalaşması yolu ilə bütövlükdə təşkilati fəaliyyətin optimallaşdırılmasına çalışırıq.

Qeydlər

